**Şəki şəhərində Sabit Rəhmanın ev-muzeyinin yaradılması haqqında**

**AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI**

Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Şəki şəhərində Sabit Rəhmanın ev-muzeyinin yaradılması barədə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Şəki şəhər İcra Hakimiyyəti ilə razılaşdırılmış təklifi qəbul edilsin.

2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi həmin muzeyin ştatlarını müəyyən olunmuş qaydada təsdiq etsin.

3. Şəki şəhər İcra Hakimiyyəti hər il Dövlət büdcəsindən şəhərə ayrılmış vəsait hesabına muzeyin saxlanılması və zənginləşdirilməsi məqsədi ilə lazımi tədbirlər görsün.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

**Bakı şəhəri, 7 sentyabr 2000-ci il**

**№ 163**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 30 sentyabr, № 9.- S. 4124.**